UOT: 631.635.262.52.5.001.4.

ƏKİN MÜDDƏTLƏRİNİN VƏ MÜXTƏLİF QİDA SAHƏLƏRİNİN SARIMSAQ BİTKİSİNİN MƏHSULDARLIĞINA TƏSİRİ

R.Ə. ABBASOV, D.Z.ŞABANDAYEV, B.Q.AĞAYEV
Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutu

Məqalədə Respublikanın Lənkəran-Astara və Abşeron bölgələrində sarımsaq bitkisinin əkin müddəti və müxtəlif qida sahələrinin məhsuldarlığa təsirinin öyrənilməsinin nəticələri göstərilmişdir. Bu aqrotexniki amillərin məhsuldarlığa təsirinin olması müəyyən edilmişdir. Təcrübi tədqiqatlarda sarımsaq bitkisindən bölgələr üzrə müəyyən edilən ən yaxşı əkin müddətləri və qida sahələrindən yüksək məhsul alınmışdır. Müəyyən edilmişdir ki, əkin müddətinin və qida sahəsinin sarımsaq bitkisinin məhsuldarlığının artırılmasında rolu böyükdür.

Açar sözləri: *Sarımsaq, əkin müddətləri, qida sahəsi, bölgə, məhsuldarlıq.*

Tərəvəzçilik kənd təsərrüfatının ən gəlirli sahələrindən biridir. Respublikanın tərəvəzçiləri son illər ərzində əksər tərəvəz bitkilərinin məhsuldarlığını və istehsalını nəzərə çarpacaq dərəcədə artırmağa nail olmuşlar. Keçən il əsas tərəvəz bitkilərinin məhsuldarlığı yüksək olmuş, pomidordan 163,7 sen, xiyardan 149,0 sen, kələmdən 192,6 sen, baş soğandan 166,7 sen, sarımsaqdan 90,1 sen, badımcandan 165,4 sen, sair tərəvəz bitkilərindən isə 137,0 sen və s. məhsul istehsal edilmişdir (5, səh 12).

Tərəvəz bitkiləri içərisində kimyəvi tərkibinə, qidalılığına, müalicəvi əhəmiyyətinə və insan sağlamlığında çox böyük roluna görə sarımsaq digər tərəvəz bitkilərindən çox fərqlənir. Ancaq onun istehsalı ölkədə xalqın tələbatını ödəmir (2, s 10). Belə ki, 2017-ci ildə respublika üzrə 21,3 min tondan artıq məhsul istehsal edilmişdir ki, bu da tələbatdan aşağıdır. Qeyd edək ki, Azərbaycanda sarımsağın torpaq-iqlim şəraitinə uyğunlaşmış yüksək məhsuldar xəstəlik və ziyanvericilərə davamlı, geniş yayılmış Cəlilabad, Qusarçay və digər sortları Respublikanın əksər rayonlarında fermer təsərrüfatlarında əkilir (3, səh 92).

Tədqiqat işləri 2015-2017-ci illərdə Abşeron YTT və Lənkəran BZTS-də aparılmışdır. Sarımsağın ən yaxşı sələfi xiyar, kələm, göy tərəvəzlər və paxlalı bitkilər olmuşdur (4, səh 86).

Məlumdur ki, sarımsaq əkini üçün yüngül mexaniki tərkibli, yumşaq, münbit, humusla zəngin, neytral torpaqlar daha əlverişli sayılır. Əkinə 1-1,5 ay qalmış sahə alaq otlarından təmizlənirmiş, 25-27 sm dərinlikdə şumlanıb, əkinqabağı rotorlu, dikbıçaqlı, vərdənələyən frezləmə, malalanmış, şırımlar açılmış və əkin keçirilmişdir (1, səh 81). Təcrübədə sarımsağın Qusarçay sortundan Abşeronda və Cəlilabad sort nümunələrindən Lənkəranda istifadə edilmişdir.

Lənkəran BZTS-da əkin müddətlərinin sarımsaq bitkisinin məhsuldarlığına təsirini öyrənmək məqsədilə metodikaya uyğun olaraq göstərildiyi kimi, 4 səpin sxemində və 3 əkin müddətlərində sarımsağın Cəlilabad sortundan istifadə olunmuşdur. Əkin 10-20, 20-25 və 25-30 oktyabr əkin müddətində aparılmışdır. Əkin 50+20 sm sxemində 3 təkrarda keçirilmişdir.

Əkin sxemləri 30+10+30+10+10x10, 50+20x10, 40+40+60x10 və 25+25+25+65x10 sm olmaqla 10-20 oktyabr müddətində 3 təkrarda aparılmışdır.

Məhsuldarlıq göstəriciləri cədvəl 1-də verilmişdir. Cədvəldən aydın olur ki, nəzarət variantda 10-20 oktyabr müddətində məhsuldarlıq orta hesabla 154,1 sen/ha olmuşdursa, ikinci variantda məhsuldarlıq 213,2 sen/ha və üçüncü variantda müvafiq olaraq 177,0 sen/ha olmuşdur (cədvəl 1).

Cədvəl 1.

Lənkəran-Astara bölgəsində səpin müddətlərinin sarımsaq bitkisinin məhsuldarlığına təsiri (3 illik orta)

S/N	Əkin müddətləri	Məhsuldarlıq, orta hesabla Sen/ha	Məhsul artımı		Qeyd
			Sen/ha	%-lə	
1.	10-20 oktyabr (nəzarət)	154,1	-	-	Əkində Cəlilabad sortundan istifadə edilmişdir.
2.	20-25 oktyabr	213,2	59,1	38,3	
3.	25-30 oktyabr	177,0	22,9	14,8	

Məhsul artımı nəzarət variantına nisbətən 59,1 sen/ha və ya 38,3 % çox olmuşdur. Digər 3-cü variantda 25-30 oktyabr əkin müddətində məhsul artımı nəzarət variantına nisbətən 14,8 %, yaxud 22,9 sen/ha artmışdır.

Aparılan tədqiqatda belə bir nəticəyə gəlmək olar ki, oktyabr ayının 20-25 müddətində aparılmış əkin daha çox məhsul alınmasına səbəb olur. Lənkəran-Astara zonasında sarımsaq bitkisindən yüksək məhsul almaq üçün, əkin müddətlərinə riayət etmək lazımdır. Ona görə də sarımsaq bitkisinin cənub

bölgəsində ən yaxşı əkin müddəti 20-25 oktyabr hesab olunmalıdır.

Sarımsaq bitkisinin məhsuldarlığının artırılmasına müxtəlif aqrotexniki tədbirlər təsir göstərə bilər. Həmin tədbirlərdən biri də qida sahələrinin (əkin sxeminin) məhsuldarlığa təsiridir. Bu baxımdan Lənkəran-Astara və Abşeron bölgələrində sarımsağın məhsuldarlığına müxtəlif qida sahəsinin təsiri öyrənilmişdir. Müxtəlif qida sahələrindən alınan məhsuldarlıq göstəriciləri cədvəl 2 və 3-də verilmişdir. Cədvəl 2-dən göründüyü kimi, nəzarət variantında orta məhsuldarlıq 159,5 sen/ha olduğu halda, 2-ci variantda, yəni 40+40+60x10 sm-də ən yüksək məhsuldarlıq əldə edilmişdir ki, bu da nəzarətlə müqayisədə 12,5 sen/ha və yaxud 7,8% məhsul artımı deməkdir. 3-cü variantda orta məhsuldarlıq 163,0 sen/ha olmuşdur. Bu da nəzarət variantı ilə müqayisədə 3,5 sen/ha, yaxud da 2,1 % artım təşkil etmişdir. 4-cü variantda orta məhsuldarlıq 167,0 sen/ha qeydə alınmış, nəzarət variantı ilə müqayisədə 7,5 sen/ha və yaxud 4,7 % artım deməkdir.

Cədvəl 2.

Lənkəran-Astara bölgəsində müxtəlif qida sahələrinin sarımsaq bitkisinin məhsuldarlığına təsiri (3 ilik)

S/N	Əkin sxemləri	məhsuldarlıq orta hesabla sen/ha	məhsul artımı		qeyd
			sen/ha	%-lə	
1.	30+10+30+10+60x 10 sm (nəzarət)	159,5	-	-	Əkində Cəlilabad sortundan istifadə edilmişdir.
2.	40+40+60x10 sm	172,0	12,5	7,8	
3.	20+50+30x10 sm	163,0	3,5	2,1	
4.	25+25+25+65x10 sm	167,0	7,5	4,7	

Lənkəran-Astara bölgəsi üçün ən əlverişli qida sahəsi 40+40+60x10 sm əkin sxemi olmuş və yüksək məhsuldarlıq alınmışdır.

Abşeron bölgəsində müxtəlif qida sahələrinin sarımsaq bitkisinin məhsuldarlığa təsiri cədvəl 3-də göstərilmişdir. Tədqiqatın nəticələrinə əasasən nəzarət variantında məhsuldarlıq 117,6 sen/ha olduğu halda 2-ci variantda 132,2 sen/ha, 3-cü variantda 187,4 sen/ha və 4-cü variantda isə 135,7 sen/ha olmuşdur.

Cədvəl 3.


Abşeron bölgəsində müxtəlif qida sahələrinin sarımsaq bitkisinin məhsuldarlığına təsiri

S/N	Əkin sxemləri	Məhsuldarlıq orta hesabla sen/ha	Məhsul artımı		Qeyd
			sen/ha	%-lə	
1.	70x6 sm	117,6	-	-	Əkində Qusarçay sortundan istifadə edilmişdir.
2.	50+20x6 sm	132,2	14,6	12,4	
3.	25+25+25+65x6 sm	187,4	69,8	59,3	
4.	62+8x6 sm	135,7	18,1	15,4	

Ən çox məhsul artımı 3-cü variantda (25+25+25+65x6 sm) qeyd edilmiş və nəzarət variantına nisbətən 69,8 sen/ha və yaxud 59,3 % artıq təşkil etmişdir. Abşeron bölgəsində 25+25+25+65x6 sm əkin sxemində yüksək məhsuldarlığ alınmışdır (şəkil 1).

Şəkil 1.

Lənkəran-Astara və Abşeron bölgələrində müxtəlif qida sahələrinin sarımsaq bitkisinin məhsuldarlığına təsiri sxemi



Abşeron bölgəsi

1. 70 x 6 (nəzarət)
2. 50 + 20 x 6 sm
3. 25 + 25 + 25 +65 x 6 sm
4. 62 + 8 x 6 sm

Lənkəran-Astara bölgəsi

1. 30 + 10 + 30 + 10 + 60 x 10 sm (nəzarət)
2. 40 + 40 + 60 x 10 sm
3. 20 + 50 + 30 x 10 sm
4. 25 + 25 + 25 + 65 x 10 sm

Respublikanın Lənkəran-Astara və Abşeron bölgələrində müxtəlif qida sahələrinin sarımsaq bitkisinin məhsuldarlığına təsirinin öyrənilməsi üzrə apardığımız tədqiqat işlərinin nəticələrini bir-biri ilə müqayisə etdikdə, belə bir nəticəyə gəlmək olar ki, Abşeron bölgəsində məhsuldarlıq Lənkəran-Astara bölgəsinə nisbətən 15,4 sen/ha artıq olmuşdur (şəkil 1).

Lənkəran-Astara və Abşeron bölgələrində aparılmış tədqiqat işlərinə əsasən aşağıdakı nəticəyə gəlmək olar.

1.Lənkəran-Astara subtropik bölgəsində ən yaxşı əkin müddətləri 20-25 oktyabrdır.

2.Lənkəran-Astara subtropik bölgəsində əlverişli əkin sxemi 40+40+60x10 sm və Abşeron bölgəsi üçün isə 25+25+25+65x6 sm müəyyən edilmişdir.

ƏDƏBİYYAT

1. Babayev M.P, Rzayev C.Ə. Tərəvəzçinin məlumat kitabı. Bakı, Azərnəşr 1992,s.77; 2. Dünyamalıyev M. “Sarımsaq” Bağça-bağ № 11. Bakı 2000, s.10; 3. Герасймова Л.И, Логунова, Середин Т.М.-Новый сорт чеснока озимого Стрелец. журнал Овощи Россий (30) 2016 с.92; 4. Eyvazov Ə.Q., Ağayev F.N., Abbasov R.Ə. Tərəvəz, bostan və kartof bitkilərinin becərilməsinin təşkilatı-texnoloji normativlərinə dair metodiki vəsait Bakı 2018, səh 86; 5. Tarla bitkilərinin əkin sahəsi, məhsul yığımı və məhsuldarlığı. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Bakı 2018, səh 12.

Влияние сроков посадки и площади питания на урожайность чеснока.

Р.А.Аббасов, Д.З.Шабандаев, В. Г.Агаев

Указываются результаты изучения влияния сроков посадки и площади питания на урожайность зубков чеснока в условиях Ленкорано-Астаринской и Апшеронской зон. Установлено влияние сроков посадки и площадей питания на урожайность чеснока.

В результате поставленных полевых опытов получены высокие урожаи чеснока. Доказано, что сроки посадки и площади питания играют большую роль для повышения урожайности этой культуры.

Ключевые слова: *чеснок, сроки посадки, площади питания, зона, урожайность.*

Effect of planting time and different nutritional areas on productivity of garlic

R.A.Abbasov, PhD in agr. D.Z.Shabandayev, B.Q.Aghayev

The paper presents the results of the studies on the effect of planting time and different nutritional areas on productivity of garlic cultivated in Lankaran Astara and Absheron regions of the Republic of Azerbaijan. It has been determined that the planting time and the different nutrienal areas has certain effect on productivity. Through practical experiences, garlic planted at optimum planting time determined for different regions with optimum nutritional areas provided high yield. It has been revealed that the planting time and nutritional area has great role in increasing productivity of garlic.

Keywords: *garlic, planting time, nutritional area, region, productivity.*

E-mail: teti_az@mail.ru